Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

# MÜSABİQƏ ELANI

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Xidmətlər Agentliyi tabeliyində olan qurumlarda aqronom və baytar həkim vəzifələri üzrə müsabiqə elan edir.

## AQRONOM VƏZİFƏSİ ÜZRƏ

MÜTƏXƏSSİS, APARICI MÜTƏXƏSSİS, BAŞ MÜTƏXƏSSİS

**Təhsil tələbi:** Aqronom, bitki mühafizəsi, torpaqşünas və aqrokimya ixtisasları üzrə ali təhsil

**İş stajı:** 0–3 il (vəzifədən asılı olaraq)

**Peşəkar bilik və bacarıqlar:** Bitkilərin becərilməsi, aqrotexniki tədbirlərin təşkili, gübrələmə və suvarma, xəstəlik və zərərvericilərin müəyyən edilməsi və onlarla mübarizə aparılması bacarığı

## BAYTAR HƏKİM VƏZİFƏSİ ÜZRƏ

MÜTƏXƏSSİS, APARICI MÜTƏXƏSSİS, BAŞ MÜTƏXƏSSİS

**Təhsil tələbi:** Baytarlıq ixtisası üzrə ali təhsil

**İş stajı:** 0–3 il (vəzifədən asılı olaraq)

**Peşəkar bilik və bacarıqlar:** Heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası, baytarlıq müayinəsi və müalicəsi, sanitar-gigiyenik tələblər və baytarlıq preparatlarından istifadə bacarığı

## Qeydiyyat müddəti

Müsabiqədə iştirak etmək istəyən şəxslər **09.09.2026-cı il tarixindən 30.09.2026-cı il tarixinədək** QR kod vasitəsilə qeydiyyatdan keçə bilərlər.

## İştirak şərtləri

Vakant vəzifənin tutulması üçün **müəyyən edilmiş tələblərə cavab verən** Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Qeydiyyatdan keç

Azərbaycan Respublikasının
Kənd Təsərrüfatı Nazirliyi

# MÜSABİQƏ MƏRHƏLƏLƏRİ

### TEST İMTAHANI
75 DƏQİQƏ

- Test imtahanı **50 qapalı test tapşırığından** ibarətdir: 35-i müvafiq sahə, 15-i məntiqi düşünmə qabiliyyəti.
- **Düzgün cavab 1 bal,** yanlış və cavabsız tapşırıq 0 bal ilə qiymətləndirilir.
- Test tapşırıqlarının **ən azı 50%-i** düzgün cavablandıran namizəd imtahandan keçmiş hesab olunur.

### MÜSAHİBƏ
QİYMƏTLƏNDİRMƏ

- Test imtahanından **müvəffəqiyyətlə keçən** namizədlər **müsahibə mərhələsində iştirak etmək hüququ qazanırlar.**
- Müsahibə zamanı namizədin **bilik və peşə hazırlığı, ümumi dünyagörüşü** və vakant vəzifə üçün **zəruri digər keyfiyyətləri qiymətləndirilir.**

### NƏTİCƏ
TƏYİNAT VƏ EHTİYAT

- Müsahibədən **müvəffəqiyyətlə keçən namizədlər arasından** vakant vəzifəyə təyinat aparılır.
- Uğur qazanıb, lakin təyin edilməyən namizədlər **Agentliyin ehtiyat kadrlar bazasına** daxil edilir.

# İŞTİRAK QAYDASI

### MÜRACİƏT
Müraciət "İşə qəbul" portalı üzərindən həyata keçirilir.

### UYĞUNLUQ
Namizədin vakant vəzifə üzrə müəyyən edilmiş tələblərə uyğunluğu yoxlanılır və müsabiqədə iştirakına dair məlumat Portal vasitəsilə namizədə təqdim edilir.

### BİLDİRİŞ
Müsabiqədə iştirakı təsdiq edilən və edilməyən şəxslərə bu barədə Portal vasitəsilə bildiriş göndərilir.

### İMTAHAN
Namizədə test imtahanının vaxtı və yeri barədə məlumat Portal vasitəsilə təqdim edilir.

### İŞTİRAK
Namizəd şəxsiyyətini təsdiq edən sənədlə müəyyən edilmiş vaxtda imtahan yerində olmalıdır.

**Qeyd:** *Təqdim edilmiş məlumat və sənədlərdə **bilərəkdən yanlış məlumat aşkar edildikdə,** namizədin müsabiqə üzrə nəticələri **etibarsız hesab edilir.***

**Müsabiqədə iştirak etmək istəyən şəxslər qeydiyyatla bağlı sualları ilə Nazirliyin 1652 Çağrı Mərkəzinə (bayram və istirahət günləri istisna olmaqla) müraciət edə bilərlər.**